Azərbaycan Respublikası
Mədəniyyət Nazirliyi

F. Köçərli adına
Respublika Uşaq Kitabxanası



# Qorxulu nağılları uşaqlara sevdirən yazıçı – Süleyman Sani Axundov

**Süleyman Sani Axundovun 145 illik yubileyi münasibətilə mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə,kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait**

**Bakı-2020**

**Tərtibçilər:** **Nərgiz Məcidova**

**Sevil Əhmədova**

**Redaktor:** **Könül Ağazadə**

**İxtisas redaktoru və buraxılışa məsul:** **Şəhla Qəmbərova**
*Əməkdar mədəniyyət işçisi*

**Qorxulu nağılları uşaqlara sevdirən yazıçı – Süleyman Sani Axundov**: S.S.Axundovun 145 illik yubileyi münasibətilə mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait / Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi, F. Köçərli ad. Respublika Uşaq Kitabxanası; tərt.ed.N.Məcidova;ixt.red. və burax.məsul Ş.Qəmbərova; red. K. Ağazadə. -Bakı: F.Köçərli ad.Respublika Uşaq Kitabxanası, 2020.-28 s.

**©F. Köçərli adına Respublika Uşaq Kitabxanası, 2020**

## Həyat və yaradıcılığı

Azərbaycan dramaturqu, nasir, maarif xadimi S.S.Axundov 3 oktybr, 1875-ci ildə Şuşa şəhərində anadan olmuşdur. Uşaq yaşlarından atasını itirdiyi üçün dayısı Səfərəli bəy Vəlibəyovun himayəsində böyümüşdür.1885-1894-cü illərdə Qori Müəllimlər Seminariyasında təhsil aldıqdan sonra III dərəcəli rus-tatar məktəbində müəllim işləmişdir.

1920-1921-ci illərdə Qarabağ vilayətinin maarif şöbəsinin müdiri, 1922-1930-cu illərdə Bakıda məktəb müdiri vəzifələrində çalışmışdır. 1922-ci ildə Azərbaycan "Ədib və Şairlər" İttifaqının ilk sədri seçilmiş ədib, ədəbi və pedaqoji fəliyyətinə görə 1932-ci ildə "Əmək qəhrəmanı" adına layiq görülmüşdür. 1921-1930 cu illər ərzində, keçmiş Sovetlər İttifaqında Bakı Sovetinin üzvü olsa da, ömrünün sonuna kimi pedaqoji fəliyyətlə məşğul olmuş, yazıçı, jurnalist kimi tanınmışdır. Onun XX əsr Azərbaycan uşaq ədəbiyyatının inkişafında böyük xidmətləri olmuşdur. Çar hakimiyyəti dövründə əsl maarifçi kimi xalqın övladlarının təhsil alması üçün əlindən gələni əsirgəməyən ədib, 1906-cı ildə Azərbaycan müəllimlərinin Bakıda keçirilən I qurultayında fəal iştirak etmişdir. Qurultaydan sonra ərəb əlifbasının islahı üçün təkliflər irəli sürən S.S.Axundov, pedaqoji sahədə həmkarları ilə birlikdə "İkinci il" dərsliyini tərtib etmişdir.

Onun XX əsr Azərbaycan uşaq ədəbiyyatının, inkişafında böyük xidmətləri olmuşdur. 1920-ci ildən sonra yazdığı əsərlərdə də geriliyi və mühafizəkarlığı tənqid edən Süleyman Sani Axundov, 29 mart 1939-cu ildə, 63 yaşında vəfat etmişdir. Hazırda yazıçının yaradıcılığına verilən qiymət kimi Bakı küçələrindən biri onun adını daşıyır.

Yaradıcılığında yazdığı ilk əsəri olan "Tamahkar" komediyasi ilə tanınmış yazıçı bu əsərini böyük drammaturq Mirzə Fətəli Axundovun "Hacı Qara" əsərinin təsiri ilə qələmə almışdır. Drammaturqun sənətini sevən yazıçı ədəbiyyatda ondan fərqlənməkdən ötrü ərəbcə ikinci mənasını daşıyan "sani" sözünü özünə ləqəb götürmüşdür. “Tamahkar" komediyasında o, dövrün bir sıra mənfiliklərinə, o cümlədən tamahkarlıq, qadın azadlığına qarşı çıxanlar tənqid edilir. Bu əsərində yaratdığı Gülzar, Şərəf xanım, İmran kimi müsbət surətləri ilə gələcək nəsli həqiqətə, fədakarlığa səsləmişdir. Bundan başqa yazıçı 1907-ci ildə yazdığı "Dibdat bəy", "Türk birliyi" komediyaları, "Laçın yuvası", Qaranlıqdan işığa", "Şahsənəm və Gülpəri", "Səadət zəhmətdədir", "Molla Nəsrəddin Bakıda", "Eşq və intiqam" kimi pyeslərinin və bir sıra uşaq əsərlərinin də müəllifidir. Bir nasir kimi 1905-ci ildə yazdığı "Qonaqlıq", "Kövkəbi-hürriyyət", "Yuxu" kimi hekayələri də müəllifin maraqlı hekayələrindəndir.

1. Əsərləri. – Bakı,1936.
2. Seçilmiş əsərləri. - Bakı,1951.
3. Seçilmiş əsərləri ( I cild.). Bakı,1968.
4. Seçilmiş əsərləri (II cild, ). Bakı, 1968.
5. Hekayələr və pyeslər. - Bakı: 1975.
6. Seçilmiş əsərləri. - Bakı: 2005
7. Qorxulu nağıllar.- Bakı: 2005
8. Qaraca qız.- Bakı: 2003

## Keçiriləcək tədbirlər

Uşaqlarla işləyən bir mədəniyyət müəssisəsi olaraq kitabxana tədbirləri arasında kitab sərgiləri, konfranslar, kitab icmalları, kitab müzakirəsi, film nümayişləri, tamaşalara baxış, ucadan oxular xüsusi yer tutur. Mövcud karantin rejimi ilə əlaqədar olaraq bu tədbirlər onlayn şəkildə davam etdirilir. Bu tədbirlər uşaqları mütaliəyə həvəsləndirir, zövqlərinin formalaşmasında və vaxtlarının səmərəli keçməsinə köməklik edir. Yazıçı S.S.Axundovun anadan olmasının 145 illik yubileyi ilə əlaqədar onlayn kitab sərgisi təşkil edə bilərik. Bu sərgilər müxtəlif başlıqlar altında hazırlanır və kitabxananın saytında, facebook, youtube, instagram və tvitter səhifələrində təqdim edilir. Sərgilərə "Qorxulu nağılları sevdirən S.S.Axundov", "Qaraca qızı sevdirən yazıçı" və başqa başlıqlar verə bilərik.

**Kitablar:**







SÜLEYMAN SANİ
AXUNDOV
Hekayələr
hekayə ustaları


Süleyman Sani
AXUNDOV
Seçilmiş əsərləri


"Klassiklərim" seriyası
SÜLEYMAN SANİ
AXUNDOV
Yaxşılıq elə, əvəzini görərsən


ГАРАЧА ГЫЗ


Сүлејман Сани Ахундо
әһмәд вә мәлејкә


AZƏRBAYCAN KLASSİKLƏRİ
SÜLEYMAN SANİ AXUNDOV
QARACA QIZ
QORXULU NAĞILLAR VƏ UŞAQLIQ XATİRƏLƏRİ

**Görkəmli şəxsiyyətlər Süleyman Sani Axundov haqqıda**

Hekayə yazmaq həvəsində olan cavanlarımız möhtərəm Süleyman Sani cənablarını təqlid edərlərsə, qazanclı çıxacaqlarına şübhə edilməməsi gərəkdir.

**Məktəb jurnalı**

Qorxulu nağıllarda hər bir əsərdə həqiqət ünsürləri vardır.

**Qafur Rəşad Mirzəzadə,**

*tərcüməçi, pedaqoq*

XX əsrdə burjua ideoloqları ilə demokratik yazıçıların mübarizə etdiyi bir dövrdə Süleyman Sani Axundov realizm, demokratizm cəbhəsini tutmuş və "Füyzat"çıların ziddinə olaraq təmiz Azərbaycan dilində əsərlər yazmışdır.

**Cəfər Xəndan,**

*professor*

Süleyman Sani, hər şeydən əvvəl bir müəllim idi. Onun bədii yaradıcılığı da öz ilhamını bu müəllimlikdən alırdı.

***

XX əsrin əvvəllərində artıq dünya mədəniyyəti ilə yaxından tanış olan qabaqcıl ziyalılarımız çox yaxşı dərk edirdilər ki, beş-on ziyalı ilə bir millətə nicat vermək olmaz. Buna görədə yeni ruhlu, mübariz ziyalı nəsli yetişdirmək vacibdir. Demokratik fikirli bütün müəllimlər, yazıçılar, maarif xadimləri yeni nəslin

tərbiyəsinə böyük əhəmiyyət verdilər. Bu işdə M.Ə.Sabir, M.F.Axundovun fəaliyyəti ilə yanaşı Süleyman Sani Axundovun da fəaliyyəti yüksəkdir.

**Məmməd Arif,**

*professor*

Sərgidə qoyulmuş “Qaraca qız” kitabı S.S.Axundovun “Qorxulu nağıllar” silsiləsindən olub valideynlərini itirmiş uşaqların acı taleyindən söhbət açır. “Qorxulu nağıllar” dakı hekayələr, həqiqətən qorxulu olsalar da onlar həyat həqiqətlərinin həyatın işıqlı tərəflərini uşaqlara açır. Xeyirxahlıq və ədavətin nə olduğunu onlara göstərir. Bu fikirləri müəllif silsilə haqqında özü demişdir. Oxucularımız da bu əsəri daha çox sevdiyindən onlarla əsərin müzakirəsini keçirə bilərik. Əsəri ona görə seçirik ki, yazıçı əsərdə uşaqların mənəvi dünyasını, həyatı, insanlığı sevmək və qiymətləndirməyi bacarmaq qabiliyyətini onlara nə qədər vacib olduğunu daha da qabarıq verib. Müzakirədə kitabxanaçı kitab haqqında məlumat verir. Hekayə oxunduqdan sonra körpəlikdən ata - anasını itirən xeyirxah cəsarətli Tutunun taleyindən oxuculara danışırıq. Müzakirənin daha maraqlı olması üçün, onlara Ağca kimdir?, nə üçün onun valideynlərinin onun Tutu ilə rəfiqəlik etməyə qoymaması, Tutunun rəfiqəsi Ağcanın həyatını necə xilas etməsi və hekayənin sonunda Tutunun öz həyatının necə olması haqqında sual-cavab edə bilərik. Öz dövrü üçün müasir mövzuda yazılmış bu əsər ilk nömrəsindən oxucuların rəğbətini qazanmış məktəb jurnalında çap olunmuşdur. S.S.Axundovun yaradıcılığının seçilməsinin bir səbəbi də əsərlərinin nağıllarımızdan su içməsidir. Bu əsərlərində müəllif hər cür

fəlakəti cəmiyyətdən doğan bəla kimi təqdim edir, uşaqları bu bəlalara hazır olmağa, yaşamaq üçün ruhdan düşməməyə çağırıır. “Yaxşılığa yamanlıq hər kişinin işidir, yamanlığa yaxşılıq nər kişinin işidir” və “Yaxşılıq et at dəryaya, balıq bilməsə də xalıq bilər” atalar sözləri əsasında yazılan “Nurəddin” hekayəsindən bu məlum olur. Görsənir ki, Nurəddin tək yaxşılığa görə deyil, qoçaqlığına, cəsarətliliyinə görə də fəlakətdən qurtarır. Yazıçı bu əsərdə gənc nəsli oxumağa həvəsləndirməklə, buna maneçilik törədənlərə mənfi münasibət bildirir. Nadan molla İmamın sözlərinin avamlığın nəticəsi olduğunu bildirir. Əsəri virtual şəkildə kitabxanaçı öz oxucularına təqdim edə bilər.

**Kitabxanaçı:** Salam əziz oxucularımız. Yenədə sizinlə görüşə gəlmişik. Bu dəfə virtual şəkildə. Axı biz evdə qalsaq da mütaliəmizdən qalmamalıyıq. Bu gün sizinlə pislik və yaxşılığın nə olması haqqında danışacayıq. Yaxşılıq insanda yüksək xüsusiyyətlərdəndir və bu xüsusiyyət özünü başqalarının rifahı üçün edilən əməllərdə göstərir. Pislik isə insan üçün xoşagəlməyən bir halıdır. Hər kəs ona pislik edənə də yaxşılıq etməli onu bağışlamağı bacarmalıdır. Sizə bununla bağlı bu il 145 illik yubileyi olan istedadlı yazıçı S.S.Axundovun “Nurəddin” hekayəsindən danışacağam. Əsərdə hadisələr dramatik tərzdə inkişaf edərək xeyirxahlığın qələbəsi ilə başa çatır. Hekayədə təsvir olunan Hacı Nəsir, Rəhim, Rəhimə, Bahar, Nurəddin nəcib, xeyirxah insanlardırlar. Həyat onları çətinə saldıqda, sınağa çəkdikdə belə, onlar öz insani keyfiyyətlərini qoruyub saxlayırlar. Gülpəri və Əmiraslan isə bədxahlığın təcəssümüdürlər. Ömür-gün yoldaşını itirən Hacı Nəsir yeganə övladına ana nəvazişi tapmaq üçün Gülpəri adında qızla yenidən evlənir. Lakin bu dəfə onun bəxti gətirmir.



Xasiyyəti çox tünd olan Gülpəri həm də var-dövlət hərisidir. Gülpəri əri Hacı Nəsirin sağlığında balaca Nurəddini tez-tez döyür, incidir, əri öldükdən sonra isə Nurəddini var-dövlətdən məhrum edib, ərinin varidatını bütünlüklə ələ keçirməyi qarşısına məqsəd qoyur. O hətta, özü kimi mənfi tip olan Əmiraslanla birləşərək Nurəddini öldürməyə belə razılıq verir. Bu iki mənfi tip məkrli plan qururlar. Onlar Nurəddini çayda batırmaq istəkləri baş tutmadıqda uşağı quyuya salıb bu yolla aradan götürməyi qərarlaşdırırlar. Gizləndiyi yerdə bu məkrli razılaşmaya qulaq asan Nurəddinin keçirdiyi hissləri təsəvvürə gətirmək çətin deyil. Lakin Gülpərinin, Əmiraslanın bəd niyyəti əsərin balaca qəhrəmanı Nurəddini nə qədər çətinliyə salsa da, xeyirxah insanlar onu ölümün pəncəsindən qurtarırlar. Valideynlərinin ölümündən sonra Nurəddin həyatda tək qalmır, İmamverdi baba, Bahar, Rəhim və Rəhimə kimi xeyirxah insanlar ona kömək əli uzadır, dayaq durmağa çalışırlar.

Beləliklə, yazıçı göstərmək istəmişdir ki, xeyirxahlıq heç vaxt itmir. Nurəddinin xeyirxah təbiətli atası həyatda həmişə başqalarına yaxşılıq etməyi özünə borc sanmışdır. O, imkan daxilində çoxlarına əl tutmuşdur. Hacı Nəsirin yaxşılıqlarından bəhrələnənlərdən biri də Rəhimdir. Quldurların soyğunçuluğu ilə üzləşən və ailəsinin dolanışığı üçün yığdığı pulu itirən Rəhimə Hacı Nəsir əl tutur, ona dolanışıq üçün təmənnasız pul verir.

Əsərin sonunda atanın etdiyi yaxşılıq köməksiz qalmış oğlu Nurəddinin qarşısına çıxır. Fayton qəzasına düşüb ciddi bədən xəsarəti alan Nurəddinə, Rəhim və onun ömür-gün yoldaşı Rəhimə hər cür qayğı göstərərək onu ölümün pəncəsindən qurtarırlar. Bundan sonra tale Nurəddinin üzünə gülür. O, bu insanların timsalında öz xeyirxah himayədarlarını tapır.

Əsər ibrətamiz sonluqla bitir. Həyatda etdiyi pisliklər, bədxahlıqlar, var-dövlət hərisliyi sillə kimi Gülpərinin üzünə çırpılır. Öz xoşbəxtliyini başqalarının bədbəxtliyi üzərində qurmaq istəyən Gülpəri axırda köməksiz, ümidsiz, başqalarına möhtac qalır. Küçədə Gülpərini səfil, dilənçi vəziyyətdə görən Nurəddin onun etdiyi pislikləri, zülm və cəfanı yada salmır, əksinə onu evə gətirib təqsirlərini bağışladığını bildirir. Burada Rəhimin dediyi sözlər yada düşür.

- Yaxşılığın əvəzini yaxşılıqla çıxmaq hər kişinin işidir. Yamanlığın əvəzini yaxşılıqla çıxmağı isə ancaq ər kişilər bacarırlar.

Ədəbiyyat janrı kimi avtobioqrafiya qədim janr olub antik dövrdən başlayır. Bu növ xatirə ədəbiyyatı janrına daha yaxındır. Avtobioqrafiya müəllifin öz şəxsiyyəti və daxili aləmi ilə daha çox bağlı olur. Müəllif təkcə öz yddaşına deyil, eyni zamanda arxiv sənədlərinə, mətbu mənbələrə və digər materiallara da əsaslanır. Cəlil Məmmədquluzadənin “Xatiratım”, Abdulla Şaiqin “Xatirələrim”, Yusif Vəzir Çəmənzəminlinin “Həyatımın iyirmi ili” əsərləri avtobioqrafik xarakter daşıyır. Burada müəllif öz həyatını qısa yada salır, əsas hadisələrini xronikal şəkildə təsvir edir. Süleyman Sani Axundovun da öz uşaqlığı haqqında yazdığı uşaqlıq xatirələri var. Kitabxanada bu xatirələrlə oxucularımızı tanış edə bilərik. Onlara maraqlı suallar tərtib edib, virtual görüş təşkil edə bilərik.

**Süleyman Sani Axundov. "Uşaqlıq həyatımdan"**

Atam Rzaqulu deyərmiş ki, mənim üç oğlum, bir qızım olacaq. Onlara bu adları qoyacağam: Qəhrəman, Rüstəm, Süleyman, Məhtaban. Atamın bu arzusıı əmələ gəlir. Böyük oğlu Qəhrəman öz sağlığında, hələ uşaq ikən vəfat edir. Mənim təvəllüdümdən iki ay sonra özü də vəfat edir. Üç körpə uşağın pərvəriş, təlim və tərbiyəsi anam Dürnisənin öhdəsinə düşür. Dayım Səfərəli Vəlibəyov (Zaqafqaziya səminariyasının müəllimi) bacısının bu ağır vəzifəsini bir qədər yüngülləşdirmək məqsədilə böyük qardaşım Rüstəmi, altı yaşında uşaq ikən, yaşadığı Qori şəhərinə aparır. Orada öz yanında hazırladıb Tiflis şəhərində gimnaziyaya qoyur. Mən də bacım Mahtabanla anamın himayəsində, Seyidli kəndində yaşamağa başladıq. Seyidli kəndi indiki Ağdam şəhərinin bir hissəsidir. Uşaqlıq həyatımın böyük hissəsi bu kənddə keçmişdir.

**Kənd məişəti**

Seyidli və onu əhatə edən kəndlilərin bağ-bağatı o dərəcədə boldur ki, göz ətrafda ot və ağacdan savayı bir şey görünmür. Haraya baxırsan bağ, bağ və yenə də bağ. Hətta göyün üzü ağacların arasından parça-parça görünür. Dar doqqazlarından başqa açıqlıq yer yoxdur. Buranın üzüm bağları Gürcüstan bağları kimi gələsər deyildir. Tənəkləri hər növ hündür ağaclara dırmaşdırılmışlar. Payız fəsli üzüm salxımları budaqlardan sallanaraq ağacları yolka kimi bəzəyirlər. Mən gözlərimi açdıqda özümü belə zəngin təbiət içində gördüm. O məni mərhəmətli qucağında yaşadarkən, həyatın ağır, zəhərli hallarını - yetimlik, yoxsulluq məşəqqətini unutdururdu. Biz uşaqların bütün günləri bağlarda keçirdi. Ta aclıq bizə qalib gəlməyincə

evlərimizə qayıtmazdıq. Qayıtdıqda da çox vaxtı, əllərimizə bir parça çörək alaraq, yenə də bağa qaçardıq. Cürbəcür meyvələr orada; çiçəklər, göy otlar orada; rəngin pərvanələr, oxuyan quşlar orada. Bizi bağlara cəlb edən şeylər bunlar idi. İlin hər fəslində biz uşaqlar üçün bağda məşğuliyyət var idi. Bahar vaxtı ağaclar hər növ rəngin çiçəklər açaraq, bağları gülüstana döndərirdi. Bu zaman quşlar yuva tikməyə məşğul olduqda, biz də onlara bəhs edərək evcik tikib çiçəklərlə bəzərdik. Bu mövsümdə yetişməyə başlayan meyvələrə gəldikdə, biz onların dəyməyini gözləməzdik. Alça çiçəyini töküb bir balaca böyüyən kimi göy olmağına baxmayaraq, duz ilə yeyərdik. Sonra tut ilə gilas dəyməyə başlardı. Yay fəslində ərik, gavalı böyürtkən deyərdi. Payız geldikdə, böyüklərlə bərabər, üzüm, heyva, nar, əzgil, zoğal, alma, armud, qoz və qeyri meyvələr yığmağa məşğul olardıq. Hətta qışda da özümüz üçün iş tapardıq. Qar hər yeri bürüyən zaman, biz bağın xiyabanlarında qardan top qayırar, onları yumalamağa başlardıq. Top getdikcə irilənərək axırda boyumuzdan hündür olardı, daha yumalamağa gücümüz çatmazdı. Ya da qardan adam, heyvan heykəli qayırardıq. Lakin bu oyunun axırı ağlamaq olardı. Çünki üşümüş əllərimizi oda verdikdə sızıldamağa başlardı. Uşaq bir qədər özünü anladıqda hər şeyin sirrini bilmək istəyir. O zaman ananın təlim və tərbiyə rolu artır. Çünki birinci növbədə uşaq sualı ona verir. Doğrudur, uşağın hər sualına cavab vermək müşküldür. Lakin mümkün olan dərəcədə cavab verib onu sakit etmek lazımdır. Mən də anama çox sual verərdim. Bir dəfə anam ilə bağımızda idim. Cırcırama aramsız cırıldayırdı. - Ana, o cırcırama nə deyir, - deyə sual etdim. - Oğlum, o cırcırama deyir ki:

Qarışqacıq-quruşqacıq.
Mənə dedi, qarışqacıq.

Dedi, dedi, dedi, dedi.

Mən anamın bu cavabına xeyli güldüm. Sonra o sözləri əzbərlədim. Cırcırama oxuyanda mən də ona qoşulub deyərdim:

- Qarışqacıq-quruşqacıq,
Mənə dedi, qarışqacıq.
Dedi, dedi, dedi, dedi.

Səslərin ahəngi cırcıramanın oxumasına elə bənzəyirdi ki, sanki doğrudan da, cırcırama o sözləri deyirdi.

Yenə bir gün anam həyətdə oturub köynək tikirdi. Mən də yanında oturmuşdum. Sərçələr "cik-cik" edərək həyətə səs salmışdılar. Tut ağacının başında oturmuş sərçə birdən: "Cırrıt!" edərək səs saldı. Sərçələr o dəqiqə səslərini kəsib özlərini çəpərin içinə soxdular. Mən buna təəccüb edib soruşdum: - Ana, o sərçə nə dedi? Quşlar niyə gizləndilər?

- Oğlum, o sərçə dedi ki, qaçın, tez gizlənin, budur qırğı gəlir! Doğrudan da bir azdan sonra qırğı göründü. Çil xoruz qışqırıq saldı. Qırğı dayanmayıb keçdi. Mən heyrətdə idim. Təəccüblə soruşdum:

- Ana, bu quş dilini sən haradan bilirsən? Mən də öyrənə bilərəmmi?

Anam gülərək dedi:

- Niyə bilmirsən! Quşlara fikir versən, öyrənə bilərsən. Tağı əmioğlun ovçudur. O, quşlar, heyvanlar haqqında çox şey bilir. Ondan soruş, desin.

**Tağı əmi**

Əmim Mirzə Məmmədin üç oğlu var idi: Tağı, Aslan, Mehdi. Tağı böyük, Mehdi kiçik qardaş idi. Sonuncu İranda tibb təhsil edərdi. O, İrana gedən zaman mən çox kiçik olduğuma görə yadıma gəlmir. Qardaşlardan yalnız Tağı evli idi. Onun məndən iki yaş kiçik Məmmədağa adlı bir oğlu var idi. O, mənim oyun yoldaşım idi. Tağı əmi sair əmizadələrimə nisbətən məndə böyük təsir buraxmışdı. Səxavətli, rəhmdil, həlim təbiətli bu şəxs öz xasiyyəti cəhətincə hamının hörmətini qazanmışdı. Atam kimi onun da ova artıq həvəsi var idi. Qızılquş, qırğı, tula saxlayıb, ölənə kimi ondan əl götürmədi. Ata məhəbbətini görmədimsə də, atalıq məhəbbətini bu sevgili əmizadəmdə gördüm. Tağı əmi quşçular arasında məşhur idi. O, bəslədiyi quşun önündən bir qırqovul qaçıb canını qurtara bilməzdi. Ov tulaları da çox təlimli olardılar. Mən əvvəllərdə quşların adlarını, növlərini, yaşayışlarını, xasiyyətlərini bilməzdim. Çalağan ilə quzğuna fərq qoymazdım. Onları mənə öyrədən Tağı əmi oldu. Göyün üzündə bir qara nöqtə kimi görünən alıcıquşu mənə göstərərək deyərdi:

- Bax, o göy üzündə süzən quş qaraquşdur. Ova çıxıbdır.

- Tağı əmi, o yuxarıda quş yoxdur. O, kimi ov edəcəkdir? – deyə soruşduqda:

- Onun ovu yerdədir. Alıcı quşların gözləri çox iti olar. Onlar yerdə siçan kimi xırda bir heyvanın hərəkət etməyini görərlər. İndi o qaraquş da yerdə dovşanın qaçdığını, ya kəkliyin uçmağını gördükdə, ildırım kimi şığıyıb caynağına alacaqdır. Sonra bir uca dağın başında oturub yeyəcəkdir, - deyə Tağı əmi mənə cavab verərdi. Mən qaraquş, quzğun, çalağan, qızılquş, qırğı, yapalaq, bayquş, sair kimi ət yeyən vəhşi quşları, alacəhrə, şeyda bülbül, sarıköynək, baltadimdik kimi oxuyan bağ

quşlarını, ya da turac, qırqovul, kəklik, çil, bildirçin kimi ov quşlarını məktəbdə şəkildən yox, hələ uşaq ikən təbiətin özündə, Tağı əminin vasitəsilə gördüm, öyrəndim. Onun mürəbbilik vəzifəsi bir bunlarla bitmirdi. Mühitimdə gördüyüm şeylərin adlarını, onlarla əmələ gələn dəyişiklikləri yenə də ondan öyrəndim. Mən əvvəllər qurdlar ilə kəpənəklərin əlaqədar olduqlarını bilməzdim. Bir dəfə bağda ala-bəzək bir qurdu yarpağa büküb gətirdim.

- Tağı əmi, bax gör nə qəşəng qurddur? - deyə ona göstərdim.

- Doğrudur, gözəldir. Lakin bu qurd kəpənək olanda daha da gözəl olacaqdır, - deyə Tağı əmi əlavə etdi.

Mən təəccüb edərək soruşdum:

- Bundan necə kəpənək olacaqdır? Onun qanadları var, bunun yoxdur.

Tağı əmi cavab verdi:

- Bu qurd yarpaq yeyə-yeyə böyüyəcəkdir. Sonra hörümçək kimi tor hörüb içində qalacaqdır. Bir müddətdən sonra onun gözləri, ayaqları yox olub topal olacaqdır. Sonra topala qanadlar, göz gələcəkdir. Yazın isti günlərinin birində baramasını deşib çıxacaqdır. Bağda uçub çiçəklərə qonduqda, sən də papağını əlinə alaraq onu tutmaq fikrinə düşəcəksən. Mən o vaxta kimi ipək qurdunun saxlanılmasını görməmişdim. Sonralar özümüz qurd saxladıqda Tağı əminin nağıl etdiyini öz gözümlə gördüm. O zaman məndə iki arzu vardı. Biri at minib seyr etmək, digəri Tağı əmi kimi quş ovuna getmək. Bunların birincisinə Tağı əmi razı olaraq, ikincisi üçün:

- Hələ ova gedən vaxtın deyil, gələn il səni qırğı ilə bildirçin ovuna aparacağam. Qızılquş ovuna atla gedərlər. Yaxşı at minmək öyrənsən, ona da apararam, - deyə məni sevindirdi. Tağı əmi dediyinə əməl edən şəxs idi. O gündən atları suvarmağa

göndərəndə mənə də boz madyana minməyə izin verdi. Anam təşvişə düşərək:
- Ay Tağı, at uşağı yıxar, - dedikdə:
- Qorxma, heç zad olmaz. Bizlər at üstündə böyümüşük, - deyə onu sakit etdi. Mən get-gedə kənd uşaqları arasında birinci at minən oldum. Bir hadisə anamı qorxuya saldı. O məni bir müddət at minməyə qoymadı. Belə ki, bir dəfə Həsən adlı yoldaşımla Ağdam bazarına gedirdim.
- Gəl çapışaq, - deyə yoldaşım təklif etdi. Onun altında üçyaşar ürgə idi, mənimkində Tağı əminin boz madyanı.
- Kəhər at altımda olsaydı, gəl çapışaq deməzdin, - deyə Həsəni utandırdım.
- Eybi yoxdur, sənə bir qədər ara versəm, razı olarsanmı?
- Olaram, - deyə cavab verdim. Bazarla, çapışdığımız yerin məsafəsi iki kilometrə kimi var idi. Yol enli və hamar idi. Qorxulu yol üç döngə idi. Mən irəlidən Həsən arxadan atların başını buraxdıq. İki döngəni salamat keçdik. Üçüncü döngəyə xeyli qalmış Həsən gəlib məni keçdi. Bunu gördükdə mən atın başını yığdım. Lakin Həsən ürgəni saxlaya bilməzdi. Bazara dönən döngəni keçdikdə ürgə Həsəni üstündən üç metrəyə qədər atdı. Bunu gördükdə adamlar yüyürüşdülər. Mən də gəlib çatdım. Həsənin qıçı iki yerdən sınmışdı. Onu xalça üstə qoyub evlərinə apardılar. Seyidlinin məşhur sınıqçısı Məşədi Yusif onu bir ayın ərzində sağaldıb ayaq üstə qoydu. Həsən irəliki kimi yenə bizimlə oyun yoldaşı oldu. Onda axsamaqdan əlamət belə qalmamışdı. Bu məşhur sınıqçını, uşaqlar üçün yazdığım "Nurəddin" adlı hekayədə yad etmişəm.

## Quş tutma

Tağı əminin göstərişi ilə mən və Məmmədağa qaratoyuq, ala-cəhrə, sərçə kimi quşları tutmağı öyrənmişdik. Qaratoyuq tutmaq üçün at qılından cələ hörüb, bağda, ağaclar altında çox gözəl olan yerdə qururduq. Özümüz də uzaqda, ağac altında gizlənib, pusquda dururduq. Qaratoyuq bağın xəzəllərini toyuq kimi eşələyə-eşələyə gəlib axırda cələ qurduğumuz yerə çıxırdı. Eşələndiyi vaxt ayağı cələnin qıldan qayrılmış gözünə düşürdü. Qaratoyuq ayağını çəkdikdə qıl halqa daralıb onu bənd edirdi. O zaman quş ayağını azad etmək üçün dartmırdı və çapalayırdı. Bunu gördükdə biz qaratoyuğun üstünü alırdıq. Sevinə-sevinə aparıb qəfəsə salırdıq. Qaratoyuq əsarətə tez öyrənişir, sonra oxumağa başlayır. Hətta onu tar ilə oxumağa öyrədirlər. Sərçə tutmaq üçün heç cələ də lazım gəlmirdi. Həyətin bir küncündə xəlbirin altına və yanlarına dən tökürdük. Xəlbirin bir yanını qaldırıb altına karandaş kimi hamar çubuqdan dirək verərdik. Çubuğun alt ucuna uzun sap bağlayıb pusquda durardıq. Sapın ucu əlimizdə olardı. Sərçələr dənləyə-dənləyə gəlib xəlbirin altına girdikdə birdən sapı çəkərdik. Sərçələr nə qədər cəld qaçsalar da, yenə bir-ikisi xəlbirin altında qalardı. Bunların maraqlısı çərtmə ilə alacəhrə tutmaq idi. Bütöv qozu iki parça edərdik. Parçanın birin tam ortasından deşərdik. Bu deşiyə çöp taxardıq. Onun ucuna da bircə dənə at qılından kəmənd kimi halqa qayırıb bağlayardıq. Çöpün ucunu qoz ləpəsindən yuxarı çıxartmırdıq. Çərtməni bağda ya yerə sancardıq, ya da ağacda budağa bağlardıq. Alacəhrə qoza çox aşiqdir. Çərtməni görə-görə yenə də özünü onun üstə atır. Lakin qoz ləpəsini dimdiklərkən, həmişə ayaqlarını halqanın içinə düşməkdən gözləyir. Nə qədər cəldlik etsə də axırda dadlı qoz ləpəsi onun

əsir düşməsinə bais olardı. Ayağı tora düşüb asıla qaldıqda, qışqırıq salardı.

**Məmmədağanın alacəhrəsi**

Çox köçəri quş var ki, qış mövsümü Qarabağda qalıb isti yerlərə köçməyir. O cümlədən biri də bağ quşu alacəhrədir. Nağıl etdiyim il qış bollu qar və çovğun ilə gəldi. Hər növ havaya öyrənmiş sərçələr belə qışa davam gətirə bilirdilər. Onlar gündüzlər özlərini həyətdə, tövləyə, peyinliyə, evlərin dəhlizlərinə soxaraq yem tapırdılar. Gecələr də samanlığa, dəyələrə, daxmaların, güləş damların deşiklərinə girərək özlərini soyuqdan mühafizə edirdilər. Lakin bağlarda yaşayan şux, sevimli alacəhrəciklər belə havada həm acından, həm də soyuqdan artıq əziyyət çəkirdilər. Bunların bütün pənah yerləri bağların qaratikan çəpərləri idi ki, orada az-çox yem tapa bilidilər. Gecələr də orada yatırdılar. Həmin qış, yoldaşım Məmmədağanı çiçək azarı tutdu. Bu xəstəliyə düşməni soyuqdan saxlamaq lazımdır. Məmmədağa Tağı əminin tək övladı idi. Ona görə onun xatiri əziz idi. Məmmədağanın çox gözəl xasiyyəti var idi. Mən onu hər vaxt mühafizə edərək qoymazdım ki, uşaqlar ona əziyyət versinlər. Əmizadələrimin köhnədən qalma bir qara damı var idi. Orada heç kəs olmurdu. Məhsul saxlamaq üçün anbar idi. Qara damlar qışda çox isti olarlar. Necə də olmasın! Dərin quyu kimi yerin içinə girən damlara ortadan bir baca qoyub üstünə bir metrəyə qədər qalın torpaq tökürdülər. Bu ağırlığa davam gətirməsi üçün torpaq pillələr qazırlar. Onun üstünü örtürlər. Buna dəhliz deyirlər. Babalarımızın bu köhnə "imarət"inə nədən "qara" adı verildiyini bilirsinizmi? İki şeydən: biri üstünə tökülən qara torpaqdan, o

biri tüstüdən, içərisi hisslənib qurum tutaraq, qaralmağından. Tağı əmi Məmmədağanı soyuqdan saxlamaq üçün arvadı Bacıxanımla dama yığışdı. Ocağa böyük kötüklər qoyub yandırırdılar. Gecə-gündüz damda ocaq sönməzdi. Bayırdan içəri girdikdə sanki bir hamama girirdin. Mənim günlərimin çoxu burada keçirdi. Tağı əmi ovdan cürbəcür hadisələr söyləyirdi. Məmmədağanı sevindirmək üçün bir dəfə çərtmə qurub bir alacəhrə tutdum. Məmmədağa buna çox şad oldu. Qəfəs olmadığı üçün alacəhrəni bir gün aşsüzən altında saxladıq: zavalı quşcığaz o qədər aclıq çəkmişmiş ki, azadlığı üçün əsla çalışmayıb, ancaq qarnını doydururdu. O biri günü ayağına uzun sap bağlayıb damın içinə buraxdıq. Quşcığaz yenə də qaçmaq fikrində deyildi. Damın içində, dəndən tutmuş çörək, qənd qırıntılarına kimi nə düşürdü dimdikləyib yeyərdi. Məmmədağa elə öyrənmişdi ki, ona süd doğraması, südlü aş, firni və qeyri-xörək verdikdə alacəhrə də boşqabın qırağına qonub onunla bərabər yeyərdi. Bir azdan sonra sapı da ayağından açdıq. Buna çox şad idi. Çünki damda sap ilə rahat gəzə bilmirdi. Həmişə dimdiyi ilə sapı ayağından çıxartmaq istəyirdi. Bu gündən sərbəst olaraq, damın içində cik-cik edə-edə gah uçurdu, gah yorğan-döşək yükünün üstə oturub mürgüləyirdi. Lakin damdan bayıra çıxmırdı. Bir səhər damda oturmuşduq. Birinci gün idi ki, hava açılıb gün çıxmışdı. Günəşin şəfəqi damın bacasından içəriyə düşmüşdü. Ala-cəhrə cik-cik edərək damda uçurdu. Birdən bacadan çıxıb getdi.

- Ah, quşum qaçdı! - deyə Məmmədağa qışqırdı.

- Qorxma yenə gələcəkdir. Belə isti yeri, yemək-içməyi buraxıb getməz, - deyə Tağı əmi onu sakit etdi. Doğrudan da, bir azdan sonra yenə də cik-cik edərək bacadan içəri uçdu. Bu sevimli quşcığaz tamam qış damda yaşayıb baharda bağa uçdu. Lakin

köhnə məkanını və dostlarını unutmayıb gahdan bir ziyarət edirdi.

## İlanlarla mübarizə

Yazın isti günlərindən başlamış payızın əvvəlinə kimi, bağlarda gəzdikdə, dar doqqazlarla getdikdə, koluqda, qulançarlıqda biz uşaqlar, özümüzü zəhərli ilanlardan gözləməliyik. Açıqlıq yerdə bu asan idi. Lakin bağda, qalın otlar içində qıvrılıb yatmış ilanı hardan görüb, özümüzü bu müzürr heyvandan mühafizə edəydik? Dostumuz koramal otların arası ilə hərəkət etdikdə məlum olurdu. Amma zəhərli ilanlar məlum olmurdu. Bir yay olmayırdı ki, ilan uşaq vurmamış olsun. Onlar da bizdən paylarını yaxşıca alardılar. İsti günlərdə çəpərlərin döşü ilanlarla dolu olardı. Onlar yuvalarından çıxıb özlərini günə verərdilər. Biz də dəstə bağlayıb onlarla müharibə edərdik. Hər birimizin əlində uzun çomaq olardı. Kimin gözünə qıvrılıb yatmış, ya hərəkət edən ilan sataşsaydı, tez çomağı ilə vurub öldürərdi. Hər kəs çox öldürsəydi, o, birinciliyi qazanardı. Bilmirəm haradan çıxmışsa, guya kərtənkələlər ilanlara ağu verirlər, ona görə bunları da düşmənlər sırasına qoyub qırardıq. Bu barədə Tağı əmidən soruşduqda o, belə cavab verdi:
- Yalan sözdür; kərtənkələlərin zəhəri yoxdur. Özləri də zəhərli həşəratı yeyib tələf etməklə bizə böyük mənfəət yetirirlər. O ki, qaldı ilana, onun iki zəhərli dişi var. Zəhər dişinin dibində nazik pərdəli iki tuluğun içindədir. İlan çaldıqda pərdələr yırtılıb zəhər yaralının qanına qarışır, onu zəhərləyib öldürür. Tağı əminin bu verdiyi məlumatdan sonra biz kərtənkələ qırmağı tərk etdik.

**Tağı əminin Tərlanı**

Tağı əminin iki növ ov quşu olardı. Biri qızılquş, o biri qırğı. Qırğı ilə Tağı əmi bildirçin tutardı. Qızılquş ilə qırqovul, kəklik, turac ovuna gedərdi. Son zamanlar Tağı əmi bir yerə getdikdə quşları mənə tapşırırdı. Quşlara nə qədər və nə cür ət verməyi Tağı əmi mənə öyrətmişdi.

- Bax, ət yağlı olmasın, - deyə Tağı əmi dübarə tapşırardı. Mən Tağı əminin hər hərəkətini götürmüşdüm. Onun kimi bəhləni geyirdim. Quşun bağını qıfıldan açardım. Əti əlimə alaraq, bir-iki addımdan quşu muşqururdum. Ac quş tez özünü ətin üstünə atırdı. Lakin Tağı əmi kimi quşu ağaca buraxıb çağırmağa cürət edə bilmirdim. Qorxurdum ki, dövr edib havaya qalxsın, tuta bilməyim. Nağıl etdiyim il, Tağı əmi dağdan gəldikdə, özü ilə bir qızılquş da gətirdi. Bu, tərlan idi. Tağı əmi onu yuvadan düşürmüşdü. Ona lazım olan tərbiyəni verərək ova hazırlayırdı. Bir müddət ac saxlayıb yem vaxtı həyətdə ağaca buraxırdı. Sonra əlinə cücə götürərək heyətin o biri başından çağırırdı. Tərlan cücəni gördükdə uçub əlinə qonurdu. Cücənin tüklərini yolmağa başlayırdı. Ətini diddikdə Tağı əmi cücəni quşun əlindən alıb onu yenə ağaca buraxırdı. Dübarə çağırırdı. Quş uçub gəlirdi. Bir-iki dəfə belə etdikdən sonra yedirirdi. Sabahısı cücə əvəzinə ət götürürdü. Bəzi vaxt qırmızı dəsmalı bükərək ətə oxşadırdı. Tərlan ona da gəlirdi. Bu tərlanın caynaqları qeyri quşlara görə çox iti idi. Bəhlədən keçib ələ batırdı.

İki bəhləni bir-birinin üstündən geyməyincə onu ələ götürmək mümkün deyildi. Bir dəfə Tağı əmi bazara getmişdi. Tərlan həyətdə, öz müəyyən yerində qıfıl üstündə bağlı idi. Mən və Məmmədağa bağda idik. Birdən həyətdə qışqırıq qopdu. Biz qaçaraq gəldik. Onda gördük ki, Tərlan, Məmmədağanın bir

yaşında bibisi oğlu Əyyubu basmarlayıb cücə kimi altına alıbdır. Arvadlar da quşu tutub çəkirlər ki, uşağı buraxsın.
- Nə qayırırsınız? - deyə qışqırdım. - Quşu çəkməyin, yoxsa uşağın ətini qopardar. - Cəld arvadları kənar edib tərlanın ayaqlarını sıxmağa başladım. Quşun caynaqları açılıb uşağı buraxdı. Arvadlar bu ittifaqdan elə heyəcana gəlmişdilər ki, quşu boğub öldürmək istəyirdilər. Mən mane oldum. Yaxşı ki, bu halda Tağı əmi özü gəlib çıxdı. Arvadları sakit edərək dedi:
- Yaxşı, mən quşumu bu gündən damda saxlayacağam. Siz də uşaqlarınzdan muğayat olub, başına buraxmayın. Tərlanın Əyyuba hücum etməsinə onun qırmızı köynəyi səbəb olmuşdu. Tərlan qırmızı şeyə həris idi. Harada görsəydi üstünə atlanardı. Tağı əminin bu tərlanı axırda məşhur bir quş oldu. Ancaq bu sənə nəsihət olsun. Bundan sonra böyüklərin sözündən çıxmazsan.

Oxuculara xatirələrdən hansının daha maraqlı olması, nə üçün onlara maraqlı gəlməsi ətrafında virtual söhbət keçirə bilərik.

## Ədəbiyyat siyahısı

### Əsərləri

Seçilmiş əsərləri. - Bakı : Çaşıoğlu, 2006. - 456 s. : portr. - (Azərbaycan Ədəbiyyatı).

Seçilmiş əsərləri : Pyeslər, hekayələr, qorxulu nağıllar. - Bakı : ŞƏRQ-QƏRB, 2005. - 448 s. - (Klassik Azərbaycan Ədəbiyyatı).

Qaraca qız : Məktəb yaşlı uşaqlar. - Bakı : Turan Nəşrlər Evi, 2003. - 36 s.Qaraca qız. - Bakı : CBS Polygraphic production, 2001. - 54 s.

Qorxulu nağıllar : Hekayə. - Bakı : Altun kitab, 2005. - 112 s. : şək. - (Azərbaycan Klassik Ədəbiyyatı).

Qorxulu Nağıllar : nağıl. - Bakı : Atilla, 2002. - 114 s.

Seçmə hekayələr. - Bakı : Altun Kitab, 2015. - 208 s. - (Hekayə ustaları).

### *Elektron resurslar*

Seçilmiş əsərləri [Elektron resurs]. - Electronik mətn. - Bakı : İnnovativ Tədris Mənbələri (İTM) QSC, 2012. - 1 el. opt. disk (CD-ROM) : portr. ; 12 sm. - (Nizami layihəsi). - (qutuda).

Qorxulu nağıllar [səs yazısı]. - Bakı : AzKC 2 saylı TİM-in səsyazma studiyası, 2002. - 1 ак. - (Danışan kitabxana silsiləsindən). - "Avrasiya" Fondunun maliyyə dəstəyilə hazırlanmışdır.

### *Kitablarda*

**Qan bulağı** ; **Ümid çırağı** ; **Qatil uşaq** // Azərbaycan uşaq ədəbiyyatı antologiyası. 3 cilddə. – Bakı : Öndər, 2005. – C. 3. – S. 53-64.

**Əhməd və Məleykə** ; Abbas və Zeynəb ; Nurəddin : hekayələr // Azərbaycan nəsri antologiyası. 5 cilddə. : XX əsrin əvvəlləri. - Bakı : Şərq-Qərb, 2006. – C.2. - S. 114-157. - (Müasir Azərbaycan ədəbiyyatı).

Tamahkar ; Çərxi-fələk ; Eşq və intiqam // XIX-XX əsr Azərbaycan ədəbiyyatı. 3 cilddə. – Bakı : Nurlar NPM, 2012. – C.3 : dramaturgiya. – S. 646 – 737.

Qonaqlıq ; Yuxu ; Kövkəbi-hüriyyət ; Aleksandr Eyniç // XIX-XX əsr Azərbaycan ədəbiyyatı. 2 cilddə. – Bakı : Nurlar NPM, 2012. – C.2 : nəsr. - S.378-391.

***Haqqında***

***Kitablarda***

**Kənan A.** Ağlaya-ağlaya sevdiyim yazıçı : Süleyman Sani Axundov // XX əsrdə repressiyaya məruz qalanlar. – C. 1.- B. : Azərnəşr, 2011. - S. 219-226.

**Əlioğlu M.** "Laçın yuvası" niyə tar-mar oldu : Süleyman Sani Axundovun eyniadlı əsəri haqqında // Darıxan adamlar. 2 cilddə. - Bakı : Təhsil, 2009. – C.1. - S. 202-208.

**Əlioğlu M.** Xalq müəllimi : Süleyman Sani Axundovun "Tamahkar" pyesi haqqında // Darıxan adamlar. 2 cilddə. - Bakı : Təhsil, 2009. – C.1. - S. 216-228.

**Əlioğlu M.** Görkəmli sovet yazıçısı : Süleyman Sani Axundovun yaradıcılığı haqqında // Darıxan adamlar. 2 cilddə. - Bakı : Təhsil, 2009. – C.1.- S. 228-265.

**Əlioğlu M.** Məmmədquluzadənin və S.S.Axundovun hekayələri // Darıxan adamlar. 2 cilddə. – C.1.- Bakı : Təhsil, 2009. - S. 320-335.

**Əlioğlu M.** Atalar və oğullar : klassik dramaturgiyaya baxış //

Darıxan adamlar. 2 cilddə. - Bakı : Təhsil, 2009. – C.1.- S. 535-772.

## *Dövri mətbuatda*

**Ağaoğlu Ə.** Şablon kölələri // 525-ci qəzet. - 2019. - 14 sentyabr. - № 125. - S. 10.
**Fərəcov S.** Müəllim-yazar - ikinci Axundov // Mədəniyyət. - 2019. - 4 oktyabr. - № 71. - S. 7.

**Fərəcova Z.** Dövrün xəyali mənzərəsi, yaxud "İrşad"ın hekayə qəhrəmanları // Ədəbiyyat qəzeti. - 2019. - 6 aprel. - № 11. - S. 24.

**İmanbəyli E** Daha bir manifest // 525-ci qəzet. - 2019. - 5 yanvar. - № 2. - S. 14-15.

**Qasımbəyli Y.** Nizami Gəncəvi adına Ədəbiyyat İnstitunun 85 illiyi münasibətilə Y. Qasımbəyli // Ədəbiyyat qəzeti. - 2018. - 9 noyabr. - № 42. - S. 28.

**Nəhmətova K.** S.S.Axundovun "Qaraca qız" əsərinin orta məktəbdə tədrisinə dair // Kurikulum. - 2016. - № 1. - S. 30-44.

**Rüstəm S.** Sağ ol, müəllimim Süleyman Sani! : şeir // Savalan. - 2018. - 25-31 dekabr. - № 57. - S. 3.

**Sadıqova C.** "Qorxulu nağıllar" : hekayələr silsiləsinin tədrisinin uşaqların tərbiyəsində rolu // Azərbaycan Müəllimi. - 2018. - 23 noyabr. - № 44. - S. 8.

**Yusifli V.** Həyatdan gələn səslər // Ədəbiyyat qəzeti. - 2018. - 15 dekabr. - № 47/48. - S. 15.

# Qorxulu nağılları uşaqlara sevdirən yazıçı –

# Süleyman Sani Axundov

(metodik vəsait)

**Ünvan:AZ-1022 Bakı şəh.,S.Vurğun küç.88;**
**E-mail:info@clb.az**
**URL:www.clb.az**

F.Köçərli adına Respublika
Uşaq Kitabxanasında
çap olunmuşdur.
Sifariş: 17
Çapa imzalanmışdır: 20.04.2020
Tirajı:100
Pulsuz